

# Azərbaycan məqsədlərinə doğru inamla irəliləyir

***Gənc müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələr haqqında söz açan ulu öndər Heydər Əliyev demişdi ki, biz dövlətimizi qüdrətləndirmək, suverenliyimizi əbədiləşdirmək üçün tarixin və Tanrının bəxş etdiyi bütün imkanlardan istifadə etməliyik. Ümummilli lider xatırladırdı ki, təkcə neftin, qazın bəxş edəcəyi imkanlarla kifayətlənə bilmərik. Xalqın intellektual potensialından, ölkəmizin coğrafi imkanlarından da səmərəli istifadə etməliyik.***

***Azərbaycan Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib. Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər. Bu ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzit 50 faizə yaxın artıb. Azərbaycan 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir. Bakı gəmiqayırma zavodu bütün növ gəmilər istehsal edə bilir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Doğrudan da, Allah Azərbaycana elə bir coğrafi imkan bəxş edib ki, dostlarımız açıq ürəklə, bədxahlarımız isə həsədlə bizim həmin inkanlarımızdan bəhrələnməyə çalışırlar və nəticədə ölkəmiz daha da qüdrətlənir və müasir dünyanın əsas aktorlarından birinə çevrilir. Mən həmin reallığın məmnuniyyətini Prezident İlham Əliyevin sentyabrın 16-da Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitindəki çıxışı zamanı bir daha yaşadım.

Doğrudan da, dövlət başçımız Azərbaycanın qarşısında duran bütün vəzifələrin reallaşdırılması üçün lazım olan bütün addımları atır. Həmin prosesdə ulu öndərin tövsiyələri də daim diqqət mərkəzində saxlanılır. Elə olmasaydı, Azərbaycan Avrasiya ölkələrinin az qala hamısını əhatə edən Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verə bilməzdi. Ancaq tək beynəlxalq nəqliyyat dəhlizləri deyil, ölkə daxilində də bizi əsas məqsədlərimizə doğru aparan çoxsaylı layihələr icra olunur. Məsələn, cənab Prezidentin də dediyi kimi, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Bu gün Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkir.

Bizi əsas məqsədlərimizə doğru məhz həmin yollar, beynəlxalq nəqliyyat dəhlizləri və Şanxaydan Londona qədər uzanan "Bir kəmər – bir yol" layihəsi aparır. Bütün bu layihələrin reallaşdırılması üçün isə beynəlxala aləmin Azərbaycana inamı, etimadı lazımdır. Prezident İlham Əliyev həmin inam və etimadı çoxdan qazanmışdır. Onun yürütdüyü xarici siyasət kursu, sözün həqiqi mənasında, gənc, həm də ərazicə o qədər də böyük olmayan Azərbaycan dövlətini dünyanın əsas aktorlarından birinə çevirib.

Həm 2020-ci ilin sentyabrındakı İkinci Qarabağ müharibəsi dövründə , həm də bu ilin sentyabrında erməni təxribatlarına cavab olaraq apardığımız hərbi əməliyyat zamanı beynəlxalq aləmin Azərbaycanın mövqelərini dəstəkləməsi məhz həmin inam və etimadın göstəricisi idi.

Doğrudan da, bizim xarici siyasətimiz çox açıq, qərəzsiz və fəaldır. Son zamanlar bu istiqamətdə yeni önəmli addımlar atılıb və ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Nəticələr arasında, əlbəttə ki, Qoşulmama Hərəkatındakı uğurlu sədrliyimizi qeyd etmək istərdik. Bizim sədrliyimiz məlum olduğu kimi, 2023-cü ilə qədər yekdil fikirlə bir il uzadılıb. Bu, onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanmışdır və bizə olan inam bu illər ərzində daha da artmışdır.

Dövlət başçımızın xatırlatdığı kimi, biz məsuliyyətli ölkə və Qoşulmama Hərəkatının fəal sədri olaraq bu təsisatın institusional inkişafına da böyük töhfə vermişik. Önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılması idi. Bakıda keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, bu hərəkatın çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün, bu, çox önəmli platformadır. Bu, bizim təşəbbüsümüz idi və bu təşəbbüs artıq özünü real həyatda göstərir.

Son zamanlar digər beynəlxalq təşkilatlarla da fəal əməkdaşlıq aparılır. Məsələn, İslam Əməkdaşlıq Təşkilatının yeni baş katibi Azərbaycana səfər etmişdir. Biz bu təşkilatla çox fəal əməkdaşlıq edirik. Əslində, biz bu təşkilatın çox fəal üzvüyük və bizim təşəbbüsümüzlə Azərbaycanda bir sıra tədbirlər keçirilmişdir. Bu dəfə isə yeni seçilmiş baş katib, eyni zamanda, azad edilmiş torpaqlara səfər edib – Füzuliyə, Şuşaya. Əlbəttə ki, biz görüş zamanı Ermənistanın Azərbaycana qarşı, bizim mədəni irsimizə qarşı törətdiyi vandalizm haqqında danışmışıq.

Bundan başqa, ölkəmiz son zamanlar Avropa İttifaqı ilə də əməkdaşlığı genişləndirir. Biz yeni saziş üzərində işləyirik. Sazişin böyük hissəsi razılaşdırılıb və razılaşdırılmamış məsələlər də müzakirə olunur. Azərbaycan Prezidentinin Avropa İttifaqı Şurasının Prezidenti ilə bir neçə görüşü olub. Əsas mövzu Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasıdır. Ancaq, eyni zamanda, Avropa İttifaqı–Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır.

Əlbəttə, Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycan hər zaman fəallıq göstərmişdir və həm təşkilat çərçivəsində, həm də üzv ölkələr arasında təmaslar genişlənir. Bu il Prezident İlham Əliyevin Türkiyə Prezidenti ilə çoxsaylı görüşləri olub. Bu ilin aprel ayında Qırğızıstan Prezidenti Azərbaycana səfər etmiş və görüşlər keçirilmişdir. Eyni zamanda, iyun ayında dövlət başçımızın Özbəkistana və Türkmənistana səfərləri olub, Özbəkistan və Türkmənistanın dövlət başçıları ilə, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri ilə görüşləri olub. Qazaxıstan Prezidentinin Azərbaycana səfəri reallaşdırılıb.

Eləcə də, qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub və bu il bu istiqamətdə addımlar atılıb. Prezident İlham Əliyevin Rusiya, İran, Gürcüstan prezidentləri ilə görüşləri Azərbaycanın regiondakı fəallığının göstəricisidir.

Son zamanlar Azərbaycan–Amerika Birləşmiş Ştatları əlaqələrinin inkişafı istiqamətində də önəmli addımlar atılmış, rəsmi nümayəndələrin qarşılıqlı səfərləri təşkil edilmişdir. Amerika Birləşmiş Ştatlarının Prezidenti Azərbaycan Prezidentinə dəfələrlə məktub göndərmişdir. Fikrimizcə, bu əlaqələrin böyük tarixi və gözəl gələcəyi var. Yəni, bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda, aparıcı beynəlxalq təşkilatlarla çox böyük işlər görülüb.

Dövlət başçımız xatırladır ki, əgər ümumiyyətlə, son illərin tarixinə nəzər salsaq, görərik ki, Azərbaycan hər istiqamət üzrə irəliləyib. Bizim mövqeyimiz hər zaman müstəqil mövqe olub, biz həmişə öz mövqeyimizi açıq nümayiş etdirmişik, o cümlədən, buna görə dünyada böyük hörmət qazanmışıq: "Həmişə sözümüzdə dururuq, həmişə verilən sözə sadiqik. Əlbəttə, bu beynəlxalq əlaqələr, bölgədə və bütövlükdə dünyada apardığımız siyasət bizə imkan verir ki, daxili problemləri daha böyük uğurla həll edək. Çünki hər bir ölkəyə daxili siyasəti düzgün aparmaq üçün müsbət beynəlxalq fon lazımdır – ilk növbədə, qonşuluqda, digər tərəfdən də dünyada. Bu gün biz buna nail ola bilmişik. Əminəm ki, bundan sonra da belə olacaq. Çünki əsas beynəlxalq oyunçularla, əgər belə demək mümkündürsə, bizim artıq oturuşmuş və dərin məzmunlu əməkdaşlıq formatımız vardır".

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan qarşıya qoyduğu bütün məqsədlərinə doğru inamla irəliləyir və istədiklərinə nail olur. Ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi, dövlət başçımızın beynəlxalq aləmdəki nüfuzu və ordumuzun peşəkarlığının gündən-günə yüksəlməsi sübut edir ki, bizim daha böyük uğurlarımız hələ qabaqdadır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***